Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Şərqdə doğan günəş - Əlişir Nəvai

**Əlişir Nəvainin 580 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2021**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Şərqdə doğan günəş:** Əlişir Nəvainin 580 illik yubileyi münasibətilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait / tərt.ed. A.Əliyeva; red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2021. -27 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

## Tərtibçi

Dünya ədəbiyyatı tarixində elə böyük sənətkarlar vardır ki, onların qələmə aldığı əsərlər təkcə öz xalqının deyil, bir çox digər xalqların da mənəvi yüksəlişinə təsir göstərərək öz müəllifinin adını şərəflə yaşadıb. Dahi özbək şairi və mütəfəkkiri Əlişir Nəvai (1441-1501) belə sənətkarlardandır. Nəvai yaradıcılığını dərinliyi və genişliyi baxımından okeana bənzətmək olar. O, təkcə böyük söz ustası deyil, həm də filosofdur. Nəvai şeir mədəniyyətini elə yüksək səviyyəyə qaldırmışdır ki, nə XV əsrədək, nə də ondan sonra özbək şeiri bu zirvəni fəht edə bilməyib. Onun yaratdığı qiymətli ədəbi miras türkdilli xalqların əmlakı, Nəvainin şöhrəti isə həmin xalqların qürurudur.

Bu il Əlişir Nəvainin 580 illik yubileyi qeyd olunur. Beynəlxalq Türk Akademiyası böyük özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin (1441–1501) anadan olmasının 580-ci ildönümü münasibətilə 2021-ci ili "Əlişir Nəvai İli" elan edib. Şairin yubileyi münasibətilə işlədiyimiz bu vəsait iki hissədən ibarətdir. Birinci hissə "Türkdilli xalqlar ədəbiyyatında ana dilində ilk "Xəmsə"nin müəllifi" adlanır. Bu hissədə şairin həyat və yaradıcılığından bəhs edilir. İkinci hissədə isə Nəvai yaradıcılığı ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

## “Türkdilli xalqlar ədəbiyyatında ana dilində ilk “Xəmsə”nin müəllifi

Nizaməddin Mir Əlişir Nəvai Teymurilər sarayına yaxın zadəgan ailəsində, 1441-ci il fevral ayının 9-da Heratda (indiki Əfqanıstan ərazisində) anadan olub. Təhsilini Herat, Məşhəd və Səmərqənd şəhərlərində alıb. Kiçik yaşlarından özbək və fars dillərində şeirlər yazıb, 15 yaşında şair kimi şöhrətlənib. Qeyd edək ki, Əlişir Nəvainin atası Qiyasəddin Kiçginə Bahadur Hüseyin Bayqaranın atası Əmir Qiyasəddin Mənsurla süd qardaşı olub. Bu səbəbdən də onların uşaqları bir yerdə böyüyüb və məktəbdə birgə oxuyublar. 1468-ci ildə məktəb yoldaşı Hüseyn Baykara hakimiyyət başına gəldikdən sonra Nəvai möhürdar təyin olunub, 1472-ci ildə vəzir rütbəsinə yüksəlib, əmir titulu alıb. Nəvai dövlət adamı kimi dövrünün alim, şair, musiqiçi, rəssam və xəttatlarını himayə edib, öz hesabına mədrəsə və xəstəxanalar açıb, yollar, körpülər saldırıb, karvansaralar tikdirib, sarayda sadə xalqın müdafiəçisi kimi tanınıb. Lakin onun bu nəcib işləri irticaçı dairələrdə narazılıq doğurub, onlar şair haqqında böhtan və iftiralar yayıblar. Buna görə də 1476-cı ildə Nəvai vəzirlikdən imtina edib. Sonra o, Astrabad vilayətinin hakimiyyətinə göndərilib (1487), lakin bir il sonra Herata qayıdaraq ömrünün sonunadək yaradıcılıqla məşğul olub. Əlişir Nəvai 1501-ci il yanvarın 3-də Heratda vəfat edib.

Ə.Nəvai 6 divan yaradıb. İlk şeirlərini “Bədaye ülbidayə” (1470) adlı divanında toplayıb, ikinci divanını “Nəvadir ül-nəhayə” (1476-1483) adlandırıb. 1498-1499-cu illərdə özbək dilində yazdığı lirik şeirlərinin “Çahar divan” adlanan 4 cilddə - “Qəraib üs-sifər” (“Uşaqlığın qəribəlikləri”), “Nəvadir ül-səvab” (“Gənclik nadirlikləri”), “Bədaiy ül vəsət” (“Orta yaşın gözəllikləri”), “Fəvaid ül kibar” (“Böyüklüyün faydaları”)

toplanıb. Fars dilindəki qəzəlləri “Divani Fani” adı ilə məşhurdur. O, ədəbiyyat nəzəriyyəsinə, fəlsəfəyə, tarixə, dilə, musiqiyə aid də elmi əsərlərin müəllifidir. Lirik şeirlərində şair insanın ictimai və mənəvi azadlığını tərənnüm edib, zülm və ədalətsizliyə, mövhumata qarşı çıxıb. Şairin yaradıcılığının zirvəsi özbək dilində yaratdığı “Xəmsə” dir. Bu əsərlərdə Nəvai dövrünün içtimai məsəllərindən bəhs edib. “Xəmsə” yə daxil olan “Möminlərin heyrəti”, “Fərhad və Şirin”, “Leyli və Məcnun”, “Yeddi səyyarə”, “Səddi İsgəndər” poemalarında şair insanpərvərlik ideyalarını daha dolğun şəkildə əks etdirib. Nəvainin “Xəmsə”si yalnız özbək ədəbiyyatında deyil, bütün türkdilli xalqlar ədəbiyyatında ana dilində ilk “Xəmsə” kimi çox qiymətlidir. O, Nizami ədəbi məktəbinin davamçılarından biri kimi şöhrətlənib. Nəvainin yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə yaxından bağlıdır. Şair Xaqani, Nəsimi və Nizaminin əsərlərini dərindən öyrənib. Onun əsərləri bir sıra xalqların dillərinə tərcümə olunub, əlyazmaları dünyanın ən iri kitabxanalarında mühafizə olunur.









Əlişir Nəvainin (1441–1501) anadan olmasının 580-ci ildönümü münasibətilə 2021-ci ili "Əlişir Nəvai İli" elan edib. Pandemiya ilə əlaqədar olaraq şairin yubileyi ilə bağlı tədbirlərin bir çox təhsil ocaqlarında, eləcə də kitabxanalarda virtual şəkildə keçirilməsi nəzərdə tutulmuşdur. İndi isə gəlin Əlişir Nəvainin yubileyi münasibətilə kitabxanalarda təşkil olunan virtual sərgilər haqqında danışaq. Virtual kitab sərgisi onlayn platformada şagirdlərin maraqlarına uyğun olaraq virtual rejimdə bütün respublika kitabxanalarının və kitabxanaçılarının ixtiyarına verilir. Müasir dövrün tələbi olan virtual kitab sərgiləri hazırlamaq ən təsirli vasitələrdən biri hesab olunur. Virtual kitab sərgisini hazırlayan zaman həm kitabxananın fondunda olan sənədlərdən, həm də elektron resurslardan istifadə etmək tövsiyə olunur. Bunun üçün ilk növbədə slaydlar hazırlanmalıdır. Kitabxanalarda Əlişir Nəvaidən bəhs edən ədəbiyyatların təbliği istiqamətində təşkil oluna biləcək virtual sərgilər: "Şərqdə doğan günəş - Əlişir Nəvai", "Türkdilli xalqlar ədəbiyyatında ana dilində ilk "Xəmsə"nin müəllifi - Əlişir Nəvai", "Böyük sənət xəzinəsi - Əlişir Nəvai", "Qəzəllər ustadı - Əlişir Nəvai", "Novator şair - Əlişir Nəvai". Şairin müxtəlif illərdə çəkilmiş rəsmlərindən ibarət stendt və kitabları sərgidə poeziyasevərlərə təqdim olunur. Əlişir Nəvainin əsərləri ilə yanaşı, müxtəlif ədiblərin, görkəmli insanların şair haqqında yazdığı materiallar, söylədiyi sözlər də sərgidə nümayiş olunur.

## Görkəmli şəxsiyyətlərin Əlişir Nəvai haqqında söylədikləri

Əlişir Nəvai Hicrətin doqquzuncu əsrinin axırlarında yetişən cığatay (türk) və əcəm şüərasının ən məhşurlarındandır. Bu şair əslən cığatay şüərasından isə də Azərbaycan şüarası arasında artıq hörmət və şöhrət kəsb etmişdir.

**Firidun bəy Köçərli,**
*Folklorşünas*

Özbək poeziyasının dünya şöhrəti qazanmasında Əlişir Nəvainin xidmətləri xüsusilə, böyükdür. Əlişir Nəvai yalnız böyük sənətkar kimi deyil, həmçinin alim və mütəfəkkür kimi öz zamandaşlarına güclü təsir göstərmiş, doğma mədəniyyəti yadlaşmaq, ögeyləşmək təhlükəsindən xilas etməyin yolunu müəyyənləşdirmişdir.

**Xəlil Rza Ulutürk,**
*Xalq şairi*

Əlişir Nəvai öz xalqını dərin ehtirasla, hərarətli qəlblə sevən böyük humanist şair və dahi mütəfəkkür idi.

**Süleyman Rüstəmov,**
*Elmi işçi*

Əlişir Nəvainin anadan olmasının 580 illik yubileyi münasibəti ilə kitabxana tərəfindən onlayn olaraq təşkil olunmuş tədbirlərdən biri də **“Söz sərrafı-Nəvai”** adlı *kompozisiyadır.* Kompozisiya zoom proqramı vasitəsilə ilə həyata keçirilir və tədbirə ədəbiyyat müəllimləri, nəvaişünaslar və yuxarı sinif şagirdləri dəvət olunur. Təyin olunmuş vaxtda virtual iştirakçılar kitabxana əməkdaşının çıxışı və onun təqdimatı ilə müəyyən ardıcıllıqla öz çıxışlarına keçid alırlar.

*Kitabxanaçı:* - Əlişir Nəvai özbək xalqının XV əsrdə yetirdiyi dahi sənətkarlardandır. O, Yaxın Şərq xalqları tərəfindən sevilən şair, alim, mütəfəkkir, bacarıqlı dövlət xadimi və mədəniyyət hamısı kimi təqdir edilən görkəmli şəxsiyyətdir. Nəvai həyatını xalqının səadəti uğrunda mübarizəyə sərf edib və eyni zamanda XV əsrdə çiçəklənməkdə olan özbək mədəniyyətinin ən böyük ədəbi abidələrini yaradıb. Zəngin ədəbi irsə malik olan Nəvai qazancını elm və mədəniyyətin inkişafına, məktəb və mədrəsələrin tikilməsinə və ehtiyacına sərf edib, bir sıra elmi əsərlərin yaranmasına imkan yaradıb. Öz xeyirxah məsləhətləri ilə ölkənin siyasi qüdrətini möhkəmləndirməyə çalışan Nəvai, həyatı dəfələrlə təhlükədə olsa belə, yenə də əqidəsindən dönməyən bu alovlu vətənpərvər xüsusən özbək ədəbi dilinin təkmilləşməsi uğrunda daha ciddi mübarizə aparıb, bu dili Yaxın Şərqdə ən görkəmli dillər səviyyəsində şöhrətləndirib. Nəvai sonsuz bir məhəbbətlə sevdiyi ana dilini himayə edib, onun üstünlüklərini "Mühakimətül-lüğeteyn" adlı kitabında elmi dəlillərlə sübut etdiyi kimi, həmin dildə cahanşümul əsərlər də yaradıb. Şairin qəzəlləri də Şərqin ən məhşur lirik şairlərinin əsərləri səviyyəsində durur. Onun "Xəzanül-məani" adlandırdığı və özbək dilində yaratdığı dörd divan bütün türk xalqlarının ədəbiyyatına qüvvətli təsir göstərib. Şair öz sənətkarlıq qüdrəti barədə belə yazıb:

İstərsə ola bir, istərsə min bir,
Bütün türk elləri ancaq mənimdir.
Xətadən başlayıb Xorasanadək,

Ellər fərmanımla ömür sürəcək.
Şiraz da, Təbriz də mənim yerimdir,
Orda şöhrətlənən söz səngərimdir...
Hansı bir dünyaya fərman apardım,
Onu almaq üçün "divan" apardım.

Digər şair və hikmətli söz sahibləri kimi Əlişir Nəvai də sözün doğrusunu deməyin hünər olduğunu bilib, sözə və sözün sehrinə böyük əhəmiyyət verib. Biz şairin əsərlərində buna dəfələrlə şahid ola bilərik, ancaq bunun bariz nümunəsi onun dördüncü poeması olan "Yeddi səyyarə"dir. Poemaya girişdə "Sözün tərifi" geniş verilib.

*Kitabxanaçının çıxışından sonra* zoom *proqramı ilə tədbirə qoşulan bir neçə oxucu poemadan parçalar söyləyirlər.*

*I oxucu:* - Səs-soraq yox ikən hələ cahandan,
Cahanın sakini bəni-insandan,
Nəqqaşlar nəqqaşı o pərvərdigar
İstədi eyləsin bir nəqş aşikar.
Yeddi Göy yaradıb çəksin yuxarı,
Üfiqdə bənd etsin həmin tağları.
Qatların birini mavi yaratsın,
Başımız üstündə onu ucaltsın.
"Ol!" deyə hökm etdi, bu bir kəlmədən
Yarandı yerlə göy, dəniz, dağ, çəmən.
Yoxluq varağında o nəqqaş xuda
Müxtəlif naxışlar elədi peyda.
Sözlə bu naxışlar olunca aşkar,
Ünsiyyət yaratdı sözlə adamlar.
Sözün barəsində bunu deyim ki,
Bütün varlıqların o olub ilki.

Söz əvvəl yaranıb, sonra məxluqat,
Sözdən sonra gəlib bütün kainat.
Taxtı da, donu da sözdür həyatın,
İlki də, sonu da sözdür həyatın.
Hər kəs ki, dünyada həyat tapıbdır,
Bərk ayaqda sözlə nicat tapıbdır.

*II oxucu:* - Bülbülün nəvası sözdür - şirin söz,
Cəhcəhli avazı sözdür - şirin söz.
Yerinə düşməyən söz tufan salar,
Susar söz bülbülü, nəğməsiz qalar.
Yarəb bir nəzər sal, söz bağçasına,
Sən bülbül lisanı vermisən ona.
Çatdır ucalığa sən bizim dili,
Susmasın bu bağın şeyda bülbülü!
Xüsusən Nəvai binəvanı sən,
Binəsib eləmə mərhəmətindən.
Solub-saralmasın söz gülüstanı,
Nəğməsinin səsi tutsun hər yanı!
Sənət gülüstanı tər güllər açsın,
Xoşavaz ilhamı könüllər açsın!

*III oxucu:* - Söz can gülşənində meh olub əsər,
Könül dənizində inciyə bənzər.
Gümüş pullar kimi parlar əsl söz,
Qəlb pulu tez seçər, tez arıyar göz.
Sözdən yaradılmış hər bir əsəri,
İki qismə bölüb söz arifləri.
Fərqini deməyə eyləsəm əzm,
Bir qismi nəsrdir, bir qism nəzm.

Nəzm ilə yazılmış təsirli əsər
Bir sapa düzülmüş inciyə bənzər.
Tərif eləyənlər olsa da nəsri,
Nəsrin nəzmə görə ucadır qəsri.
Sözdəki həm ölçü oldu, həm ahəng,
Nə şəkildə olsa, qəşəngdir, qəşəng.
Hər şeirdə qəlbimdə olsa da maraq,
Məsnəvi yazmağa mailəm ancaq.
Məsnəvi yazmağım münasib işdir,
Çünki məsnəvidə meydan genişdir.
Orda söz açsaq da, yüz əhvalatdan,
Hər şeyi aydınca anlayar insan.

*Sonda kitabxanaçı iştirakçılara və oxuculara təşəkkür edir. Sözün böyük nemət olduğunu, ürəkdən gələn sözün həmişə ürəklərə yol tapdığını vurğulayır*: "*Bu gün biz sizlərlə Nəvainin gözəl söz pətəyindən damla-damla süzülən bal ətirli, çiçək təravətli söz aldıq. Ruhumuzu, qəlbimizi qidalandırdıq...*"

Oxucuların sevərək və xüsusi fəallıqla iştirak etdiyi tədbirlərdən biri də oxucu **konfransıdır.** Bunun üçün bir həftə ərzində oxucular Nəvainin həyat və yaradıcılığı, "Xəmsə"si ilə yaxından tanış olurlar. Konfrans zoom proqramı vasitəsilə ilə həyata keçirilir. *"Türk "Xəmsə"sinin banisi - Əlişir Nəvai"* adlı konfransa yuxarı sinif şagirdləri, müəllim heyəti və oxucular cəlb olunur. Virtual tədbir kitabxanaçının çıxışı ilə başlanır.
*I oxucu:* - Mütəfəkkir şair Əlişir Nəvai Orta əsrlər klassik türkdilli ədəbiyyatın görkəmli nümayəndələrindən biridir. Özbək ədəbi dilinin banisi olan Nəvai təkcə mənsub olduğu xalqına deyil, eyni zamanda Orta əsrlər Şərq ədəbi düşüncəsinin humanist ideyalarla süstlənməsinə mühüm töhfələr verib.

Coşğun istedadlı şair iki il ərzində (1483-1485-ci illərdə) "Xəmsə" yaratmaqla özünün poetik qüdrətini nümayiş etdirib.

*II oxucu:* - Məlum olduğu kimi, beş böyük poemadan ibarət olan "Xəmsə" formasını Şərq poeziyasına ilk dəfə dahi Azərbaycan şairi Nizami Gəncəvi gətirib. Ondan sonra bir çox şairlər "Xəmsə" yaratmağa çalışıblar. Nizamidən sonra "Xəmsə" yazmaq istəyənlər onun mövzularını, əsərlərinin forma xüsusiyyətlərini, bəhrlərini saxlamaqla yanaşı, orijinal olmağa, sujetdə dəyişiklik etməyə, mövzunu yeni baxımdan işıqlandırmağa çalışıblar. Lakin onların yalnız bəziləri buna nail ola biliblər. N.Gəncəvidən sonra yalnız hind şairi Əmir Xosrov Dəhləvi (1253-1325), tacik-fars ədəbiyyatının klassiki Əbdülrəhman Cami (1414-1492) və Nəvai bu çətin işin öhdəsindən bacarıqla gəliblər, gözəl və orijinal "Xəmsə" müəllifləri kimi şöhrət qazanıblar.

*III oxucu:* - Nizami Gəncəvi və Əmir Xosrov Dəhləvi kimi böyük sənətkarlardan sonra "Xəmsə" yazmağa başlayan Əlişir Nəvai onlardan öyrənməklə, faydalanmaqla yanaşı, bəzən onlarla razılaşmayıb, sələfləri ilə mübahisəyə girib hadisələri özünün düzgün hesab etdiyi kimi davam etdirib, mövzuya tamamilə orijinal xüsusiyyətlər əlavə edib. Nəvainin humanizm ideyaları ilə zəngin, orijinal, həqiqi sənətkarlıq ilhamı ilə yazılan bu epik əsərləri dünya ədəbiyyatının ən gözəl nailiyyətləri ilə bir sırada dayanır.

*IV oxucu:* - Əlişir Nəvainin ilk poeması "Heyrətül-əbrar" ("Möminlərin heyrəti") adlanır və fəlsəfi-didaktik mahiyyət daşıyır. İyirmi fəsildən ibarət olan bu əsərin hər fəslində ibrətamiz bir hekayət nəql olunur. Poemada o dövrün mühüm içtimai problemlərinə toxunulur və cəmiyyətin müxtəlif təbəqələrinə mənsub adamların xarakterləri realistcəsinə təsvir

olunur. Əməkçi insanların tərəfində dayanan, onlara dərin məhəbbət bəsləyən şair, humanizm mövqeyindən feodalizm çəmiyyətinin eybəcərliklərini açıb göstərir və zülmü, zalım hökmdarı tənqid etməklə yanaşı, şair ideal hökmdar surətləri də yaradır. Poemanın başlıca məziyyəti bundadır ki, müəllif əsər boyu xeyri təsdiq və mədh edir, şəri isə ifşa və rədd edir.

*V oxucu:* - Əlişir Nəvai ikinci poemasının mövzusunu Xosrov şahla gözəl Şirin arasındakı məhəbbətə dair Şərqdə geniş yayılmış əfsanədən alıb. Məlum olduğu kimi, Nəvaiyə qədər bu əfsanəyə Firdovsi, Nizami və Dəhləvi də müraciət edib. Lakin Nəvai mövzunu tamam başqa səpkidə işləyib. Nizami Gəncəvinin poemasında Xosrov və Şirin əsas surətlərdir. Şair Xosrovu əvvəlcə mənfi surət kimi təqdim edir, lakin Şirinin əsl, böyük məhəbbətinin təsiri ilə Xosrov get-gedə dəyişilir və əsərin sonuna doğru müsbət insana, adil hökmdara çevrilir. Poemada Fərhad və Şapur ikinci dərəcəli surətlər kimi təsvir olunublar. Nəvai isə əksinə, Şirini, Fərhadı və onun dostu Şapuru əsas qəhrəmanlar kimi qələmə alır. Xosrovu qaniçən hökmdar kimi təsvir edir. Nəvainin "Fərhad və Şirin" poemasında Fərhad böyük istedada malik sənətkar və alim kimi canlandırılıb. Fərhad Şirini böyük məhəbbətlə sevir və öz sevgisinə ömrünün axırına qədər sadiq qalır. O, Xosrov şahın zülmkarlığına qarşı mərdliklə mübarizə aparır, əməkçi xalqın səmimi dostu, müdafiəçisi kimi çıxış edir. Folklor materiallarına əsaslanaraq, Nəvai əsərinə Fərhadın əjdaha, şər rəmzi Əhrimən və Xosrov qoşunu ilə vuruşduğunu təsvir edən səhnələr daxil edib. Bu səhnələr Fərhadın nə qədər cəsur, igid və tədbirli biri olması barədə bizdə canlı təsəvvür yaradır. Poemada Şirin sədaqətin, vəfanın Şapur isə dostluğun, xeyirxahlığın rəmzi kimi canlandırılıb. Müəllifin müxtəlif ölkələri və xalqları təmsil edən

qəhrəmanlar arasındakı dostluğu və bağlılığı xüsusilə nəzərə çarpdırmağa çalışması diqqəti cəlb edir. Gözəl keyfiyyətlərə malik olan bu nəcib insanlar haqq və ədalət uğrunda mübarizə aparır, zülmü, haqsızlığı ifşa edirlər.

*VI oxucu:* - Leyli və Məcnun arasındakı kədərli məhəbbətə dair Ərəbistanda yaranmış rəvayətə Şərqin bir çox böyük şairlərindən sonra Nəvai də müraciət edib və bu ənənəvi mövzuda orijinal əsər yazıb. Bütün poema boyu şair belə bir ideyanı təlqin etməyə çalışır ki, insan ləyaqətinin mənəvi-əxlaqi keyfiyyətlər və istedadla yox, əmlakı, var-dövləti ilə müəyyən olunduğu bir cəmiyyətdə şəxsiyyət və məhəbbət azadlığından söhbət ola bilməz. Poema feodal qayda-qanunlarının qəzəbli, amansız ifşası kimi səslənir. Saf, həqiqi məhəbbəti vəsv edən "Leyli və Məcnun" poemasında humanist şair şəxsiyyət azadlığının, insan hüquqlarının ehtiraslı müdafiəçisi kimi çıxış edir.

*VII oxucu:* - Nəvainin dördüncü "Səbeyi-səyyarə" ("Yeddi səyyarə") poemasında İran şahı Bəhram və onun sevgilisi Dilaramdan söhbət açır. Bu mövzunu ondan əvvəl işləyən Nizami və Dəhləvidə olduğu kimi, Nəvai də Bəhramı mürəkkəb, ziddiyyətli xarakterə malik bir surət kimi təsvir edir. Bəhram bir tərəfdən cəsur, igid qəhrəman, mahir ovçu, ədalətli və insanpərvər hökmdar, qadın gözəlliyinin aşiqi, arvadını hərarətlə sevən insan, digər tərəfdən isə eyş-işrətdən, sərxoşluqdan başı ayılmayan, ölkəni başlı-başına buraxan zəif iradəli, insanlarla, hətta sevimli kənizi Dilaramla belə, sərt və amansız rəftar edən bir hökmdar kimi verilib. Nəvai hadisələrin inkişafında məntiqi bağlılığa və ardıcıllığa xüsusi diqqət yetirib, sujeti əsasən Bəhramla Dilaram arasındakı sevgi üzərində qurub. Sələfləri kimi Əlişir Nəvai də Bəhramın yeddikünbəzli qəsr tikdirməsindən və bu qəsrə müxtəlif ölkələrdən yeddi gözəl

gətirilməsindən söhbət açır. Nizami və Dəhləvidə şahzadə gözəllər növbə ilə Bəhrama nağıl danışıb onu əyləndirirdilər. Nəvainin əsərində isə nağılları yeddi gözəl yox, müxtəlif ölkələrdən gəlmiş yeddi səyyah danışır. Özü də bu nağılları Nəvai, sadəcə olaraq, əyləndirici hekayətlər kimi əsərinə daxil edib, bu nağılları əsas sujet xətti ilə üzvü surətdə bağlaya bilir. Folklor materiallarına əsaslanan və qüdrətli sənətkarların tükənməz yaradıcılıq xəyalını əks etdirən bu nağıllarda həqiqi dostluq, sədaqət, qəhrəmanlıq, yaradıcılıq əzmi və haqq-ədalət kimi yüksək mənəvi-içtimai keyfiyyətlər ön planda tərənnüm edilir.

*VIII oxucu:* - Nəvainin "Xəmsə" sinə daxil olan axırıncı poema "Səddi-İsgəndər" adlanır. Makedoniyalı İsgəndər haqqında istər Şərq, istərsə də Qərb ədəbiyyatında silsilə romanlar yazılıb. Bu romanın Şərq variantlarında İsgəndər həqiqi tarixi simadan daha çox əfsanəvi şəxsiyyət kimi təsvir olunur. "Səddi-İsgəndər" poemasında Nəvainin ictimai idealları insan, insanpərvərlik prinsipləri əsasında cəmiyyətin yenidən qurula biləcəyinə inamı, qənaətləri daha dolğun əks olunub. Bu əsər feodal cəmiyyətində zülmün, haqsızlığın amansız ifşası, ittihamnaməsi, insan hüququnun və ləyaqətinin himni kimi səslənir.

Əlişir Nəvai təkcə humanist şair yox, dövrünün görkəmli dövlət xadimi olduğundan bu mövzuya xüsusi diqqət yetirib və hadisələri adil hökmdar haqqında öz təsəvvürləri, mülahizələri baxımından işıqlandırıb. Əgər Nizami müdrik filosoflar əhatəsində olan İsgəndəri əsasən bir fateh kimi canlandırıbsa, Cami bu ideal hökmdar rəmzinin simasında ümumiyyətlə fatehlik keyfiyyətlərini təsvir etmək istəməyibsə, Nəvai qəhrəmanın şəxsində hökmranlıq fəaliyyəti ilə müdrikliyi cəmləşdirib.

*Pandemiya ilə əlaqədar olaraq dahi özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin 580 illik yubileyi münasibəti ilə şairin yaradıcılığını oxuculara, məktəblilərə daha yaxından tanıtmaq üçün bir çox təhsil ocaqlarında, kitabxanalarda zoom proqramı ilə bir sıra tədbirlər təşkil olunur. Keçirilən onlayn tədbirlərdən biri də* ***"Səhnəcik"*** *dir. Kitabxanaçı Əlişir Nəvainin "Fərhad və Şirin" poemasından "Fərhadın Xosrovun yanına gətirilməsi" adlı hissəyə baxmağa dəvət edir.*

*Nağıl danışan:* - Bir dəstə cəllad Fərhadı götürüb Xosrovun yanına gətirdilər. Xosrov bunu görüb sevindi və onlara xeyli xələt bəxş etdi. İşgəncələrə məruz qalmış Fərhad ayıldıqda özünü əl-ayağı qandallı şahın hüzurunda gördü. Başına gələnləri xatırladı, lakin özünü itirmədən dikəlib şaha baxdı. Bunu görən Xosrov onu danışığa tutdu...

Xosrov: - Ey divanə, haralısan sən?

Fərhad: - Divanələr tanımaz vətən!

Xosrov: - Nə seçmisən özünə peşə?

Fərhad: - Rüsvayi-eşq olmaq həmişə.

Xosrov: - Bu peşə ilə pul qazanılmaz.

Fərhad: - Eşq oduna yansan az olmaz.

Xosrov: - Eşq odundan de bir əfsanə!

Fərhad: - Yanmayanda yox bu nişanə.

Xosrov: - Yanmağını nədən bilim mən?

Fərhad: - Duymaz onu var-dövlət güdən.

Xosrov: - Nə zamandan sövdalısan sən?

Fərhad: - Vücuduma ruh girməmişdən.

Xosrov: - Bu sövdadan əl çək, kamə yet,

Fərhad: - Bu sözləri burax, tövbə et.

Xosrov: - Aşiqlərə nə ağır gələr.

Fərhad: - Hicran günü, məhəbbət  kədər.
Xosrov: - Bəs onların nədir həyatı?
Fərhad: - Görüş günü yar iltifatı.
Xosrov: - Çək söz ilə yarın rəsmini!
Fərhad:  - Dil qısqanar desəm ismini.
Xosrov: - Könlün onun eşqinə yurdmu?
Fərhad:- O eşqdir cismimdəki ruh.
Xosrov:- Arzunmudur cana vüsalı?
Fərhad: - Bəsdir mənə ancaq xəyalı.
Xosrov: - Qoy özgəyə  gülsün o ləblər.
Fərhad: -  O gül dodaq yadı  zəhərlər.
Xosrov: - O səndə tutar qoymadı,
Fərhad:-  Həm bu idi könül muradı.
Xosrov: - Qorx köksündə aça yüz yara
Fərhad: -  Kaş qəlbimi edə min para.
Xosrov: - Ömrünü puç edər cəfası.
Fərhad: -  Canım olsun onun fədası.
Xosrov: - Məhəbbətdən bir faydası yoxdur.
Fərhad: -  Eşq əhlinə bu dəxi çoxdur.
Xosrov: - Yaxşı olar eşqi buraxmaq,
Xosrov: - Bu, aşiqdən uzaqdır, uzaq.
Xosrov: -  Dövlət verim, olma əsiri,
Fərhad: -  Dəyişmərəm xakə iksiri,
Xosrov: -  Dağ çəkəcək hicran sinənə,
Fərhad: - Vəsl ümidi bəs edir mənə.
Xosrov: -Şaha şərik çıxırsan, eyvah,
Fərhad: -  Eşq yolunda nə dərviş, nə şah?
Xosrov: - Bax bu işdən üzülər canın,
Fərhad: -  Məhəbbətdə kim güdər canın?
Xosrov: -  Ölkə verim, keç bu həvəsdən,

Fərhad:- Xahişini geri götür sən.
Xosrov:- Cəlb edərəm səni edama.
Fərhad: - Yar yolunda çataram kama.
Xosrov: - Ölüm səndən uzaq deyil, bax!
Fərhad: - Bu sözlərdən ölüm xoşdur, ah!

*Nağıl danışan:* - Şah nə qədər desə də, Fərhaddan rədd cavabı aldı. O, Fərhadın qətlinə fərman vermək qərarına düşdü. Gah Fərhadı oxla vurdurmağı, gah dara çəkdirməyi, gah da odlara atmağı düşündü. Bundan xəbər tutan Fərhad şaha üz tutaraq, sevgidə nə çəksəm, mənə xoşdu, onsuzda hicran mənə ölümdən betərdi, deyərək bir daha cəsurluğunu nümayiş etdirir.

Əlişir Nəvainin 580 illik yubileyi münasibəti ilə *"Nəsrin yarpağına qələm çəkərək, Fərhadla Şirini əks edəm gərək"* adlı böyük şair Nəvainin "Fərhad və Şirin" poemasına əsasən **"Sual-cavab" gecəsi** keçirilməsi səciyyəvidir. Bunun üçün onlayn tədbir haqqında məlumat kitabxananın müxtəlif adda sosial şəbəkələrində elan olunaraq oxucuların nəzərinə çatdırılır. Sorğuda iştirak etmək istəyən oxucular kitabxananın sosial şəbəkə ünvanlarına onlayn şəkildə müraciət edərək tədbirə qatılırlar. Kitabxana əməkdaşı sualları sosial şəbəkə vasitəsilə oxuculara təqdim edir.

"Sual-cavab" gecəsi tədbirə qoşulan ədiblərin iştirakı ilə məktəb şagirdləri arasında keçirilir. Gecə kitabxanaçının sözləri ilə başlanılır.

*Kitabxanaçı:* - Ə.Nəvainin yaradıcılığında "Xəmsə" mühüm yer tutsa da, "Xəmsə" yə daxil olan poemalar içərisində də "Fərhad və Şirin" mərkəzi əhəmiyyətə malik bir sənət əsəri olaraq nəzər-diqqəti cəlb edir. Gəlin, sizlərlə bu əsərə uyğun olaraq sual-cavab keçirək:

***Sual:*** - Poemanın əsl qəhrəmanı kimdir?

***Cavab:*** -Poemanın əsl qəhrəmanı Fərhaddır. Şair bütün arzularını bu surətin mübarizəsində əks etdirib, bu ideal insanın faciəsində göstərir. Şair bu surətdə bütün müsbət xüsusiyyətləri toplayır. Fərhad, hər şeydən əvvəl, əməyi sevir, ona hörmət bəsləyir və o, həmişə əməkçi xalqı düşünür. Fərhad eyni zamanda, cəsur bir igid, səadət düşməni olan əjdahalar və əhrimənlərlə vuruşan bir mübarizdir.

***Sual:*** - Fərhad hər zaman özündən daha çox xalqın rifahını düşünür. Bu xüsusiyyət əsərdə müəyyən yerlərdə qabarıq göstərilir. Misal göstərə bilərsinizmi?

***Cavab:*** - Fərhad bu zəhməti, bu əziyyəti,
Görüncə kəsildi, səbri, taqəti.
Qəm, kədər yağaraq baxışlarından
Bu dəstə içinə qarışdı haman.
Dedi:-Ey mən kimi bəla çəkənlər,
Fələkdən qəlbiniz olmuş mükəddər...
Görüb halınızı qəlbim alışdı,
Alovu, tüstüsü başımdan aşdı.

***Sual:*** - Nəvai qələmində Şirin surəti necə tərənnüm edilir?

***Cavab: -*** Nəvai Şirin surətini də maraqlı işləyib. Onu tam mənası ilə Fərhada sadiq, vəfalı və fədakar bir məşuqə olaraq tərənnüm edib. Şirin hünərini gördüyü Fərhadı sevdikdən sonra bu məhəbbəti həyatı bahasına qoruyur. Böyük bir ölkənin hökmdarı olan Xosrovun məhəbbətini rədd edir. Şirin var-dövlət, şan-şöhrət istəmir, həqiqi məhəbbəti hər şeydən üstün tutub, bu məhəbbət uğrunda da intihar edir. Şirin tədbirli bir qadın kimi də nəzər, diqqəti cəlb edir.

***Sual:*** - Əsərdə mənfi qəhrəman kimdir?
***Cavab: -*** "Fərhad və Şirin" əsərində müsbət surətlərə qarşı qoyulan əsas mənfi şəxsiyyət Xosrovdur. Xosrov Pərviz əsərdə yeganə tarixi simadır. Nəvai Xosrov simasında zülmkar bir şah surəti yaradıb, şahlığın mənfi xüsusiyyətlərini onun şəxsiyyətində göstərməyə çalışıb.
***Sual: -*** Nəvai və Nizaminin "Fərhad və Şirin" poeması arasındakı fərqləri sadalaya bilərsinizmi?
***Cavab:*** - Nizaminin əməkçi insanlar sırasından seçib, sadə bir daşyonan olaraq göstərdiyi Fərhad əsərdə ikinci dərəcəli surətlərdən biridir. O, əsərə gec daxil olur, tez də məhv olur. Oxucu Fərhadı çox görmür, ancaq bu qısa tanışlıqla da Fərhad surəti əbədiləşdirilir. Nəvai isə Fərhadı bir şahzadə kimi göstərib onu naz-nemət içində böyütsə də şahlara, şahzadələrə səciyyəli şəxsiyyət kimi deyil, bəlkə, öz arzularını ifadə edən ideal bir insan kimi canlandırır. Şair özünün bu ideal surətində bütün müsbət xüsusiyyətləri toplayır.

*Sonda Nəvainin əsərlərindən parçalar deyilir.*

Kitabxana tərəfindən Türk dünyasının böyük şairi Əlişir Nəvainin xatirəsinə həsr olunmuş onlayn tədbirlərdən biri də *"Türk ədəbiyyatının sönməz günəşi - Əlişir Nəvai"* adlı *oxucularla virtual söhbətdir.* Tədbir kitabxanın əməkdaşları tərəfindən zoom proqramı vasitəsi ilə onlayn olaraq həyata keçirilir. Virtual söhbət məktəbin yuxarı sinif şagirdləri və ali məktəb tələbələri üçün nəzərdə tutulur. Tədbirdə müxtəlif adda məktəblərin ədəbiyyat müəllimlərinin çıxışları da yer almaqdadır. Tədbiri açıq elan edən kitabxanaçı virtual qonaqları salamladıqdan sonra Əlişir Nəvainin həyat və yaradıcılığı haqqında məlumat verir.

Virtual iştirakçılara ilk olaraq Əlişir Nəvai haqqında hazırlanmış slayd təqdim edilir. Onlayn tədbiri açıq elan etmək üçün kitabxana əməkdaşı söhbətə keçid alır.

-Salam, dəyərli qonaqlar, Nəvaisevərlər, şairə vurğun oxucular, bu gözəl şeirli, nəğməli tədbirə xoş gəlmisiniz. Dahi Nizaminin davamçısı, böyük özbək şairi və mütəfəkkiri, dövlət xadimi Nizaməddin Mir Əlişir Nəvainin 580 illik yubileyi münasibətilə keçirilən tədbirdə sizləri xoş gördük. Şairin qələmindən süzülən inci damlaları nur olub qəlbinizə axsın, dəyərli iştirakçılar!

Qələmdir yel kimi sürətlə gedən,
Əzəldən yüksəkdir yeri fələkdən,
Vəhmin ədhəmindən daha tez çapar,
Onun Şəbdiz kimi bir surəti var.
Minmişdir üstünə şahanə barmaq,
Buğum belbağıdır, üzüdür dırnaq,
Quyruğunu edər çapanda ələm,
Ayağından etmiş başını qələm.

- Bəşəriyyətin yetişdirdiyi böyük dühalar nə milli sədlə, nə coğrafi ərazi ilə, nə də zamanla məhdudlaşırlar. Onlar əsrdən-əsrə daha böyük qüdrət və əzəmətlə yüksələrək bütün xalqlar arasında sevilirlər. Şərq şairlərindən birinin dediyi kimi. “Bütün canlılar ölür, bütün cansızlar –yəni elm, bədii söz, sənət isə əbədi yaşayır.” Belə söz ustalarından biri də Əlişir Nəvaidir. Nəvai özbək xalqının dünya mədəniyyəti xəzinəsinə verdiyi böyük hədiyyədir. O, şair, alim, mütəfəkkir, dövlət xadimi kimi məşhurdur.

*Ədəbiyyat müəllimi:* - Şair türkcə şeirlərini “Nəvai”, farsca əsərlərini isə “Fani” təxəllüsü ilə qələmə alıb. Şairin əsərlərinin sujetləri əsasında əsərləri (opera, balet və s.), həyat və

yaradıcılığından bəhs edən kitablar yazılıb. Haqqında bədii film ("Əlişir Nəvai", 1848-ci il) çəkilib. Özbəkistanda adına maarif və mədəniyyət müəssisələri, ali məktəb və küçə var. Görkəmli şairin yaradıcılığına ölkəmizdə də böyük maraq var. Bakıda Nəvainin abidəsi ucaldılıb. 1968-ci ildə Nəvai işinin tədqiqatçısı, böyük ədəbiyyatşünas alim, akademik Həmid Araslıya Özbəkistan Respublikasının Əməkdar elm xadimi adı verilib.

Nəvainin ədəbi-elmi irsi son dərəcə zəngin və çoxcəhətlidir. O, 7-8 yaşlarından şeir yazmağa başlamışdır. Yarım əsrdən artıq bir müddətdə poeziya, filologiya və tarix elmi sahəsində çalışaraq ölməz bədii və elmi əsərlər yaratmışdır. O, ana dilində (o öz ana dilini, türk dilini türkü adlandırır) lirik, epik əsərlər, elmi traktlar yaratmışdır. Nəvai Yaxın Şərqin, demək olar ki, bütün ədəbi janrlarında lirik əsərlər yazmışdır. Şair qəzəl janrına xüsusi əhəmiyyət vermişdir. 25 min beytə yaxın olan bu zəngin lirika xəzinə ümumən "Çar divan" ("Dörd divan") adlanır.

- Nəvai təkcə dahi söz ustası deyil, həm də böyük filosofdur. Əgər poeziya şairin canı və ürəyi idisə, fəlsəfə onun üçün sehrli bir meydan idi. Ona görə də şair yaradıcılığa başladıqda fikrini fəlsəfi cəhətdən əsaslandırmağı özünə müqəddəs borc hesab edirdi. Yunanıstan, Hindistan, Misir, Çin, İran və Orta Asiyadan topladığı fəlsəfi cəvahirləri bir-bir öz parlaq təfəkkürünün süzgəcindən keçirən şair elm, fənn, sənət və ədəbiyyatda özünəqədərki yazıların hamısını dərindən öyrəndi, sələflərinin irsinə hörmətlə yanaşdı, onlardan öz yaradıcılığında geniş istifadə etdi. Bunu şair "Məcalisün-nəfais" əsərində də etiraf edirdi: "Biz dahi söz ustalarının zəmisindəki yerə tökülmüş sümbülləri yığırıq. Bəlkə heç ona da layiq deyilik..."

*Ədəbiyyat müəllimi* - “Azərnəşr 1948-ci ildə şairin “Fərhad və Şirin” poemasının minacat və nət hissələrini (ixtisarla), “Uşaqgəncnəşr” onun “Sabeyi-səyyar” əsərindən parçaları Azərbaycan dilində oxuculara çatdırıb. Azərbaycan dilində yazılan ilk dərsliklərdə isə Nəvainin şeirləri çap olunub, şairin tərcümeyi-halı verilib. Azərbaycan xalqı qardaş özbək xalqının dahi oğlu Əlişir Nəvainin qiymətli irsini öz doğma sənətkarlarının irsi kimi hörmətlə öyrənir.

Əlişir Nəvai irsi Azərbaycan xalqı tərəfindən hələ XV əsrdən oxunur və sevilir. Əsrlərdən bəri xalqımız Nəvaini öz şairləri sırasında bilir. Hələ onun müasiri Kişvəri, Xülqü kimi lirik şairlər Nəvainin təsiri altında əsərlər yazıblar. Böyük Füzuli də öz “Leyli və Məcnun” əsərinin müqəddiməsində onun adını dahi sənətkarları sırasında çəkib. M.F.Axundov məqalələrində Nəvaini ağıllı dövlət xadimi kimi xatırlayıb. Azərbaycan təzkirəçilərindən Sadiq bəy Əfşar öz “Məcməül-xəvas” adlı əsərini Nəvaini təriflə başlayıb, onun əsəri üslubunda qurub.

Ə.Nəvainin anadan olmasının 500 illiyi 1926-cı ildə Bakıda təntənə ilə keçirilib. Şairin haqqında məqalələr yazılıb, “Müntəat” və “Vəqfiyyə” adlı əsərləri ilk dəfə Bakıda çap olunub. Bu zaman Hüseyn Bayqaranın “Divan”ı da ilk dəfə nəşr edilib. Bakının Nərimanov rayonunda Əlişir Nəvainin abidəsi ucaldılıb. Respublikamızın Hacıqabul rayonunda Əlişir Nəvai adına qəsəbə və kücə də vardır.

*Hörmətli tədbir iştirakçıları, indi isə gəlin* şair, alim, mütəfəkkir, dövlət xadimi *Əlişir Nəvainin həyat və yaradıcılığından bəhs edən filmə tamaşa edək.*

## *ƏSƏRLƏRİ*

***Kitablar***

**Seçilmiş Əsərləri** : Poeziya. - Bakı : Öndər, 2004. - 425 s. - (Dünya Ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

**Fərhad və Şirin** : Poeziya. - Bakı : Çaşıoğlu, 2006. - 272 s. : port. - (Dünya Ədəbiyyatı).

**Fərhad və Şirin** [Elektron resurs]. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : il. ; 12 sm. - (Nizami layihəsi).

***Dövri mətbuatda***

**Nəvai Ə. Leyli və Məcnun** : poemadan parça : iyirmi beşinci fəsil // Ədəbiyyat qəzeti. - 2012. - 22 sentyabr. - № 35. - S. 3.

## *HAQQINDA*

***Kitablarda***

**Qaraoğlu F.** Əlişir Nəvai // Türk millətinin tarixi, qurduğu dövlətlər və ata-babaları. – B.:Nurlar, 2007. – S.264-265.

**Ulutürk X.(Rza).** Böyük sənət xəzinəsi // Dünyanın ədəbi xəritəsi. – B.: Çinar-Çap, 2008. – S.117-128.

***Dövri mətbuatda***

**Bakıda Əlişir Nəvaiinin heykəli qoyulub** //
Mədəniyyət. - 2008. - 4 sentyabr. - S. 2.

**Bakıda böyük özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin abidəsi açılmışdı** : Açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti İslam Kərimov iştirak etmişdir // Xalq qəzeti. – 2008. - 13 sentyabr. - S. 3.

Dahi Nizaminin böyük davamçısı : Əlişir Nəvai-570 //
Mədəniyyət. - 2011. - 9 fevral. –
№ 10. - S. 13.

**Əlişir Nəvai – 565** // Azərbaycan. - 2007. - 7 fevral. - S.7.

**Əlişir Nəvai** (1441-1501) // Savalan. - 2013. - 29-31 yanvar. - № 6. - S. 2.

**Əlişir Nəvai** (1441-1501) : dünyanın məşhur şəxsiyyətləri //
Savalan. - 2008. - 22-24 yanvar. - S. 3.

**Fərəcov S.** Türk dilində ilk "Xəmsə"nin müəllifi : Əlişir Nəvai böyük Nizamini həmişə özünün ustadı hesab edib // Mədəniyyət. - 2014. - 4 iyul. - № 51. - S. 15.

**Qəniyeva S.** Azərbaycan-özbək ədəbi əlaqələrində yeni epoxa : Almaz Ülvinin özbək ədəbiyyatı sahəsindəki tədqiqatları haqqında // Azərbaycan. - 2009. - 28 iyun. - S. 7.

**Nəvai Ə.** Kəbə ziyarəti : "Leyli və Məcnun" poeması //
Respublika. - 2014. - 4 oktyabr. - № 217. - S. 12.

**Sərvaz.** "Bu dostluq bulmaz payan..." : Əlişir Nəvai - 570 //

Ədəbiyyat qəzeti. - 2011. - 11 fevral. - № 5. - S. 1-2.

**Şəmsizadə N**. İnsaf və insanlığın beşiyi Asiya // Ədəbiyyat qəzeti. - 2011. - 16
sentyabr. - № 34. - S. 3. ; 30 sentyabr. - №. 36. - S.3.

**Ülvi A**. Cığatay ədəbiyyatı və dahi Nəvai : Əlişir Nəvai - 565// Azərbaycan. - 2007. - 7 fevral. - S.7.

**Ülvi A.** Nəvai irsi və Azərbaycan : özbək şairi Əlişir Nəvaii haqqında // Xalq qəzeti. - 2008. - 11 sentyabr. - S. 6.

**Ülvi A.** Nəvainin "Mizanül - övzan" əsəri Azərbaycan dilində : Əlişir Nəvai-565 // Xalq qəzeti. - 2007. - 10 fevral. - S.8.

**Vəfalı A.** "Harda türk eli var - orda mən varam..." : Əlişir Nəvainin abidəsinin açılışı // Ədəbiyyat qəzeti. - 2011. - 11 fevral. - № 5. - S. 1-2.

**Vəfalı A**. Üç dahi, üç "Leyli və Məcnun" - bir amal : Nəvai: "Leyli və Məcnun" // Respublika. - 2014. - 4 oktyabr. - № 217. - S. 12.

# Şərqdə doğan günəş - Əlişir Nəvai

(metodik vəsait)

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**